UOT 94(479.24); UOT 930.271

HACIFƏXRƏDDİN SƏFƏRLİ

AMEA-nın müxbir üzvü, professor
Naxçıvan Dövlət Universiteti
Orcid: 0009-0007-1665-8906
seferli949@mail.ru

QADINLARIN XATİRƏSİNƏ HAZIRLANMIŞ MÜSƏLMAN KİTABƏLƏRİ HAQQINDA (Naxçıvan Muxtar Respublikası materialları əsasında)

DOI: https://doi.org/10.36719/2708-065X/109/223-227

Məqalədə Naxçıvan Muxtar Respublikası ərazisində aparılan epiqrafik tədqiqatlar zamanı aşkar olunan qadınların xatirəsinə hazırlanmış kitabələrdən bəhs olunur. Qeyd olunur ki, Orta əsrlər zamanı islam qanunlarına görə, xüsusilə Qurani-Kərimin "Hicab" haqqında ayəsinin tələblərinə əsasən qadınların bədənlərini naməhrəmlərdən gizlətməsi vacib sayılırdı. Bu qadağalar bəzən epiqrafik abidələrdə qadınların adının yazılmasında da özünü göstərirdi. Tədqiqatlarımız göstərir ki, bütün qadağalara baxmayaraq Naxçıvan Muxtar Respublikası ərazisində vəfat edən qadınların bir hissəsinin qəbri üzərində qoyulan başdaşı və sənduqə tipli qəbirüstü xatirə abidələri üzərində həkk olunan kitabələrdə onların adı da qeyd olunurdu. Bu zaman müxtəlif vasitələrdən istifadə edilirdi. Qəbirüstü xatirə abidələri üzərində qadınların adlarının qeyd olunması həmin qadınların kübar ailələrə mənsub olması və cəmiyyətin həyatında tutduqları mövqe ilə əlaqədar olmuşdur.

Açar sözlər: Naxçıvan, Ordubad, başdaşı, qadın, mərhumə, kitabə.

Giriş. Naxçıvan Muxtar Respublikası ərazisində son onilliklərdə aparılan epiqrafik tədqiqatlar nəticəsində Orta əsrlər zamanı ərazidə yaşamış çoxlu sayda qadının adı, atasının adı, titulu, qəbrinin yeri müəyyən edilmiş, onların Orta əsrlər dövründəki sosial vəziyyətinə və feodal cəmiyyətində tutduqları mövqeyə dair məlumatlar əldə edilmişdir. Mövcud ədəbiyyat materiallarına əsasən aydın olur ki, müsəlman epiqrafikası abidələrində – inşaat və məzar kitabələrində qadın adlarına çox da geniş şəkildə rast gəlinmir. Məlumdur ki, Orta əsrlər zamanı cəmiyyətdə hakim mövqeyə malik olan islam ideoloqları müqəddəs kitab Qurani-Kərimin hökmləri əsasında fəaliyyət göstərirdilər. Səhifələrində cahiliyyət dövründə ataların qız uşaqlarının doğulmasından irəli gələn narazılığını bəyənməyən və bu səbəbdən də bütpərəstlərin öz qız uşaqlarını diri-diri torpağa basdırmaq adətini pisləyən Qurani-Kərim qadın haqlarına böyük önəm verərək onlara nəvazişlə yanaşır və qadınlara bir sıra hüquqlar verir. Qadınlara aid xüsusi surəsi (ən-Nisa) olan Qurani-Kərimin II (əl-Bəqərə) surəsinin 228-ci ayəsində vurğulanan "(Kişilərin qadınlar) üzərində şəriətə görə haqları olduğu kimi, (qadınların da) onların üzərində haqları vardır" (1, s. 35) fikri, Qurani-Kərimin digər ayələri, Məhəmməd peyğəmbərin vida həccindən qayıdarkən söylədiyi xütbəsində dediyi "qadınların haqlarına riayət edin. Bu xüsusda Allahdan qorxun. Siz qadınları Allahın əmanəti olaraq aldınız. Sizin qadınlar üzərində haqlarınız olduğu kimi, onların da sizin üzərinizdə haqları vardır" hədisi-şərifi, peyğəmbərin dilindən səslənən çoxlu fikirlər ("Övladlarınız arasında oğlanla qıza fərq qoymayın. Fərq qoymaq lazım olsaydı, mən qızları seçərdim", "Cənnət anaların ayaqları altındadır" və s.) islam dininin qadınlara nə qədər böyük hüquqlar və haqlar verdiyinin parlaq ifadəsidir.

Qurani-Kərim hicab ("hicab" sözü ərəb dilində arakəsmə, görünməyən pərdə və ya material arxasında olmaq mənasına gəlir) haqqında ayədə qadınların hicabda olmasını, yəni naməhrəmlər qarşısında örtülü olmasını tələb edir. İslam ehkamlarının hakim olduğu Orta əsrlər dövründə bu ayənin tələblərinə uyğun olaraq din xadimləri qadınları ətraf mühitdən təcrid edir, hətta adlarının yazılı mənbələrdə, kitabələrdə geniş qeyd edilməsinə icazə vermirdilər. Bu mənada görkəmli dövlət xadimi Nizamülmülkün II xəlifə Ömər ibn əl-Xəttabdan (634-644-cü illər) misal gətirdiyi "qadınların üzləri örtülü olduğu kimi, sözləri də örtülü olmalıdır" (2, s. 151) fikri Orta əsrlərdə qadınlara münasibəti aydın əks etdirir.

Qadınlara bu münasibət epiqrafik abidələrdə də özünü büruzə vermiş, bu sahədə bir sıra qadağalar qoyulmuşdu. Ancaq, islam ehkamlarının təqibi bu işi dayandıra bilməmiş, insanlar öz mərhumlarının

xatirəsini əziz tutmuş, qadın qəbirləri üzərində yazılı abidələr qoymuşlar. Ancaq, bu zaman abidəni hazırlayan ustalar, xəttat və həkkaklar heç də həmişə vəfat edənlərin adlarını epitafiyalarda açıq şəkildə qeyd etməmiş, sifarişçilərin arzusuna uyğun olaraq onların adını naməhrəmlərdən gizlətmiş, mərhumənin kimliyini bildirmək, qəbri tanıtmaq üçün müxtəlif üsul və vasitələrdən istifadə etmişlər.

Əsas mətn. Dini qadağalara baxmayaraq naxçıvanlı ustalar da vəfat etmiş qadınlar üçün başdaşı və sənduqə tipli gözəl xatirə abidələri yaratmış, hətta onların qəbirləri üzərində möhtəşəm türbələr ucaltmışlar. Naxçıvan şəhərində bu gün də öz əzəməti və gözəlliyi ilə heyrət doğuran, islamın intibah dövründə – XII əsrdə Azərbaycan Atabəyləri dövlətinin banisi Şəmsəddin Eldənizin xanımı, Məhəmməd Cahan Pəhləvanın anası Möminə xatının şərəfinə 1175-1186-cı illərdə inşa edilmiş möhtəşəm məqbərəni buna misal göstərmək olar.

Qeyd etmək lazımdır ki, bizim tədqiqatlara qədər Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan Atabəyləri dövlətinin banisi Şəmsəddin Eldənizin xanımı Möminə xatının və Hülakülər dövlətinin əsasını qoyan Hülakü xanın arvadı Qudi xatının adları istisna olmaqla üzərində qadın adı yazılmış kitabə aşkar olunaraq tədqiq edilməmişdir. Keçən yüzilliyin sonlarından başlayaraq Naxçıvan ərazisində tərəfimizdən aparılan epiqrafik tədqiqatlar zamanı qadınların xatirəsinə hazırlanmış 30-dan artıq məzar kitabəsi qeydə alınıb öyrənilmişdir.

Bu tip kitabələr tarix-mədəniyyət abidəsi kimi böyük əhəmiyyətə malik olmaqla yanaşı qadınların Orta əsrlər zamanı sosial vəziyyətinə dair mülahizələr yürütmək üçün məlumatlar təqdim edirlər. Epiqrafika üzrə tədqiqatçılar da həmin kitabələrə digər cəhətləri ilə birlikdə bu baxımdan da yanaşmış və maraqlı elmi nəticələrə gəlmişlər. Tacikistanlı epiqraf-alim A.Muxtarov bu məsələyə xüsusi tədqiqat həsr etmişdir (7, c. 69-76). Orta Asiyanın müxtəlif yerlərindən qeydə alınmış qəbirüstü kayrakları (xatirə abidələrini) öyrənən tədqiqatçının fikrincə, qadın qəbirləri üstündə qoyulan yazılı abidələr mərhumənin özünün və ya nəslinin, əcdadlarının sosial vəziyyəti ilə əlaqədar olmuş, əsasən böyük vəzifəli şəxslərin və varlı adamların arvadlarına, qızlarına məxsus olmuşdur (7, c. 74-75; 8, c. 64). Dağıstanlı alim Ə.Şıxsəidov göstərir ki, qəbirüstü xatirə abidələrində qadınların adının həkk edilməsi onların kübar mənşəyi ilə əlaqədardır (9, c. 328).

Bizim Naxçıvan ərazisində tədqiq etdiyimiz kitabələrin təqdim etdiyi məlumatlar da bu fikirləri təsdiq edir. Adlarını məzar kitabələrinə əsasən aşkar etdiyimiz bir qrup qadınlar Orta əsrlərdə yaşamış dövlət və din xadimlərinin, sufi şeyxlərinin və s. görkəmli şəxsiyyətlərin arvadları və qızları olmuşlar (məsələn, Möminə xatın hökmdar arvadı, Xanım Əta Mülk vəzir, Pəri xanım ustad, Həvva Bədr Bikə qazı, Mikeysə xanım şeyx, Qureyş şahbanu və Ziba xanım əmir və s. kimi görkəmli şəxsiyyətlərin qızları olmuşlar). Həmin qadınların zadəgən silkinə mənsubluğunu xatirələrinə hazırlanan abidələrin əksəriyyətinin incə, bədii cəhətdən zəngin tərtibatı da təsdiq edir. Aydın məsələdir ki, nəfis şəkildə hazırlanmış xatirə abidələri baha qiymətə başa gəlirdi və əzizləri üçün bu cür gözəl qəbirüstü xatirə abidəsi düzəltdirmək hər ailəyə müyəssər olmurdu.

Ərazidə tədqiq etdiyimiz kitabələrin böyük bir qrupunda mərhumələr atasının adı ilə birlikdə təqdim edilmişlər. Bu zaman kitabədə əksər halda atanın adının əvvəlində onun daşıdığı tituallar da qeyd edilirdi ki, onlar da həmin adamın yaşadığı dövrün sosial-siyasi, ideoloji və mədəni həyatında tutduğu mövqeyi təyin etmək üçün sanballı mənbələr hesab olunurlar. Naxçıvan Muxtar Respublikası ərazisində bizə qədər gəlib çatan, mətnində qadın adı yazılmış ən qədim kitabə Naxçıvan şəhərində tikintisi 1186-cı idə başa çatan, Əcəmi Naxçıvani yadigarı Möminə xatın türbəsinin qurşaq hissəsində iri hərflərlə yazılan əsas kitabədir. Kitabənin mətnindən aydın olur ki, məqbərə Azərbaycan Atabəyləri dövlətinin birinci xanımı Möminə xatının xatirəsinə ucaldılmışdır (3, s. 59-60).

Culfa rayonundakı Əlincəçay xanəgahında aşkar olunmuş, hazırda Naxçıvan Dövlət Tarix Muzeyində saxlanan mərmərdən hazırlanmış sənduqə tipli qəbirüstü xatirə abidəsinin baş tərəfində düzəldilmiş düzbucaqlı çərçivənin içərisində iki sətirdə ərəb dilində mərhum haqqında məlumat verən kitabə həkk edilmişdir. Kitabənin mətni belədir: "Bu bağça Kamil Şeyx Hacı Hilalullahın qızı, mərhumə Mikeysə xanımındır" (3, s. 89-90). Sənduqənin səthinin kənarları boyunca lentvari haşiyə şəklində yazılan Quran ayəsindən (II-255) sonra isə mərhumun vəfat tarixi həkk edilmişdir: 897-ci il (14.11. 1491 – 22.10.1492-ci il).

Culfa rayonunun Xanəgah kəndində yerləşən Əlincəçay xanəgahında aşkar olunmuş sənduqə tipli xatirə abidəsinin yan tərəflərində Qurani-Kərimdən "Ayətəl-Kürsi" (Qurani-Kərim, II-255), baş

tərəfindəki düzbucaqlı çərçivə içərisində isə iki sətirdə, ərəb dilində belə bir kitabə həkk edilmişdir: "Bu bağça qazı Məcd əd-Dinin qızı, mərhumə Həvva Bədr Bikənindir" (4, s. 89). Kitabədən aydın olur ki, xatirəsinə gözəl qəbirüstü abidə hazırlanmış Həvva Bədr Bikə şəriət hakiminin – qazı Məcd əd-Dinin qızı olmuşdur. Kompleksə daxil olan məqbərə-məscidin kitabəsindən aydın olur ki, Həvva Bədr Bikə bu məqbərini əri, Xanəgahın şeyxi Şeyx Hacı Lələ Məliyin xatirəsinə ınşa etdirmişdir.

Xanəgah kəndindən Əlincəçay xanəgahına gedən yolun sağ tərəfində yerləşən qəbiristanlıqda qalan qırmızımtıl rəngli dağ daşından hazırlanmış sənduqə tipli bir xatirə abidəsi kitabəsindən aydın olduğu kimi, hicri-qəməri təqvimi ilə 904-cü ildə (miladi, 19.08.1498-07.08.1499-cu ildə) vəfat etmiş Bikə Sultan adlı qadının xatirəsinə hazırlanmışdır (4, s. 116).

Naxçıvan şəhərinin cənubunda yerləşən Köhnə qalada (Naxçıvanqalada) aparılan bərpa işləri zamanı aşkar olunmuş başdaşının üzərində 14 məsumun adı və mərhumə haqqında məlumatlar həkk olunmuşdur: "Bu qəbir Rüfətin qızı, əməlisaleh, səcdə edən, bakirə, rüku edən, örtülülərin (hicablıların-H.S.) zinəti Şərəf xanımındır – ali məqam sahibi və düz yol göstərənlərin istinadgahı. Məhərrəm ayı, min qırx doqquzuncu il. İmarətin binası qoyuldu, 1049 (miladi ilə, 04.05 – 02.06. 1639-cu il)" (3, s.105-106).

Ordubad rayonunun Azadkənd qəbiristanlığında sənduqə tipli qəbirüstü abidə Zərifə adlı qadının xatirəsinə hazırlanmışdır. Sənduqənin səthində, baş tərəfdəki düzbucaqlıda Quranın 55-ci surəsindən 26-27-ci ayələr, yanlarında isə II surədən 255-ci ayə həkk edilmişdir. Ayənin sonunda isə vəfat edən qadının şəxsiyyəti və ölüm tarixi qeyd edilmişdir: "Dərviş bəy əl-Azadinin qızı, mərhumə Zərifə. 992-ci il (1584-cü il)" (5, s. 215).

"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində nümayiş etdirilən sarımtıl rəngli mərmərdən hazırlanmış başdaşı üzərində həkk edilmiş kitabənin mətnindən aydın olur ki, başdaşı görkəmli alim Nəsirəddin Tusinin nəslindən olan Mirzə İnayətin qızı, hicri-qəməri təqvimi ilə 1169-cu ildə (miladi ilə, 07.04.1756-cı ildə) vəfat etmiş İzz Şərəf xanımın xatirəsinə hazırlanmışdır (3, s. 98).

Bu kitabələrin təhlili, onların bədii cəhətdən tərtibatı göstərir ki, haqqında bəhs etdiyimiz qadınların çoxu Naxçıvanın kübar ailələrinə mənsub olmuşlar.

Naxçıvan Muxtar Respublikası ərazisində tədqiq etdiyimiz bir qrup məzar ktabəsində isə qadınlar ancaq, öz adları ilə təqdim edilmişlər. Ordubad şəhərindən qeydə aldığımız sarımtıl mərmərdən hazırlanmış başdaşı üzərində yazılmış kitabənin mətni belədir: "Bu işıqlı qəbir-gül mərhumə, bağışlanmış Pəricahan xanımındır. 1221 (miladi ilə, 21.03.1806-10.03.1807-ci il)" (5, s.118-119).

Ordubad rayonunun Yuxarı Əylis kəndindən qeydə alınmış başdaşı formalı xatirə abidəsinin mərkəzi hissəsində ərəb dilində yazılan kitabənin mətni belədir: "[O] əbədidir! Quran XXVIII-88. Mərhumə Həvva xanımın vəfat tarixi. 1202-ci il (miladi ilə, 13.10.1787 – 01.10.1788-ci il)" (5, s. 157).

Qeyd etmək lazımdır ki, Ordubad tayonunun Yuxarı Əylis kəndində tədqiq etdiyimiz kitabələrin çoxu qadınların xatirəsinə hazırlanmışdır. Orta əsrlər zamanı, islam dininin hakim olduğu və hicaba ciddi əməl olunduğu bir dövrdə Əylisdə qadınların xatirəsinə bu qədər çox qəbirüstü abidələr hazırlanması diqqəti cəlb edir. Keçmişdə qadınların xatirəsinə yazılı xatirə abidələrinin hazırlanması onların sosial vəziyyəti və kübar mənşəyi ilə əlaqədar olduğundan mühüm ticarət mərkəzlərindən olan Əylis şəhərində bu qəbil məzar kitabələrinin çoxluğu təbii görünür. Şübhəsiz ki, xatirəsinə kitabələr yazılmış bu qadınlar Orta əsrlər zamanı bir müddət şəhər statusunda olan Əylisin kübar ailələrinə mənsub qadınlardır (6, s.14). Yuxarı Əylisdə çoxlu müsəlman epiqrafikası abidələrinin qeydə alındığı böyük məzarlığın, Şah Abbas məscidinin və s. mövcud olması onun haqqında erməni iddialarını ifşa edən cox mühüm qaynaqlardır.

Qəbirüstü xatirə abidələrində həkk edilən kitabələrdə öz adları ilə təqdim edilən qadınlar yaşadıqları dövrdə əhali arasında tanınmış və kifayət qədər nüfuz qazanmış insanlar olmuşlar.

Naxçıvan Muxtar Respublikası ərazisində tədqiq etdiyimiz məzar kitabələri içərisində öz məzmununa, formasına görə müstəsnalıq təşkil edən və maraq doğuran kitabələr də vardır. Naxçıvan və Ordubad şəhərlərində tədqiq etdiyimiz iki ədəd məzar kitabəsində vəfat etmiş qadın ərinin adı ilə təqdim edilmişdir. Məsələn, Ordubad şəhər qəbiristanlığında bir başdaşı üzərində həkk edilmiş kitabənin məzmunu belədir: "Molla Səminin mərhumə arvadı. 1130-cu il (miladi ilə, 1718-ci il)" (5, s. 102). Göründüyü kimi, kitabədə qadının adı verilməmiş, ərinin adı ilə təqdim olunmuşdur. Müsəlman epiqrafikasında nadir hal kimi qiymətləndirilən və çox az təsadüf edilən bu vəziyyət ərin öz zəmanəsində malik olduğu yüksək nüfuzu və din xadimi – molla olması ilə izah oluna bilər. Burada qadının adının gizlədilməsində hicab məsələsini də nəzərə almaq lazımdır.

Hazırda "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində mühafizə edilən bir ədəd mərmərdən hazırlanmış başdaşının üzərində yazılmış məzar kitabəsində də qadın atasının deyil, ərinin adı ilə təqdim edilmişdir: "Quran LV-26. Kərbəlayi Hüseynin arvadı Sona xanım. 1238-ci il səfər əl-müzəffər ayının 20-də (miladi ilə, 06.11.1822-ci il)" (3, s. 98). Ancaq, əvvəlki kitabədən fərqli olaraq burada əri ilə birlikdə qadının adı (Sona xanım) da qeyd olunmuşdur.

Ordubad şəhərində qadının xatirəsinə hazırlanmış bir ədəd epitafiyada isə həkkak mərhuməni oğlunun adı ilə təqdim etmişdir: "Hacı İbrahimin mərhumə anası. 1113 (08.06.1701 – 27.05.1702-ci il)" (5, s.98). Bu isə vəfat edən qadının oğlunun yaşadığı dövrdə əhali arasında böyük hörmət sahibi, əhali arasında nüfuzlu şəxsiyyət olmasından irəli gəlmişdir. Bunu onun daşıdığı "Hacı" titulu da təsdiq edir.

Muxtar respublika ərazisində epiqrafik tədqiqatlarımız nəticəsində aydın olmuşdur ki, Orta əsrlər zamanı məzar kitabələri tərtib olunarkən bəzən vəfat edən qadının adı yazılmamış, sadəcə olaraq "Mərhumə" yazılmaqla kifayətlənmişlər. Hələlik belə bir hala yalnız bir dəfə rast gəlinmişdir: Ordubad şəhərində bir ədəd epitafiyanın mətni belədir: "Quran LV-26,27. Mərhumə. 1212 (miladi ilə, 26.06. 1797-14.06.1798-ci il)" (5, s. 117).

Bu qəbil kitabələr "Hicab" haqqında ayənin təsiri ilə hazırlanmışdır.

Qadınların adına əlavə olunan titul və epitetlər onların zadəgən nəslindən olmasını sübut edir. Kitabələrin çoxunda mərhumələr "xanım", "xatın", "banu", "bikə" titulları ilə təqdim edilmişlər. Yazılı mənbələrindən məlumdur ki, bu tip titullar Orta əsrlərdə geniş yayılmışdı. Türk xalqlarında əsilzadə və kübar qadınlara verilən bu titullar göstərir ki, xatirələrinə məzar kitabələri yazılmış qadınlar əsasən kübar ailələrdən olmuş, onların özləri, ataları və ya ərləri yaşadıqları dövrün ictimai-siyasi və mədəni həyatında fəal mövqe tutmuşlar.

Nəticə. Əlbəttə, Naxçıvan Muxtar Respublikası ərazisində qadınların xatirəsinə hazırlanmış epitafiyalar qeyd olunan nümunələr ilə məhdudlaşmır. Ərazidə qadınların xatirəsinə hazıranmış digər abidələr də tədqiq olunmuşdur. Yəqin ki, gələcək tədqiqatlar nəticəsində bu qəbildən olan yeni kitabələr aşkar ediləcək, onların verdiyi faktlar öyrəndiyimiz məsələnin qaranlıq məqamlarını tədqiq etmək üçün bizə yeni məlumatlar çatdıracaqdır. Bu tip abidələr indiyədək sistemli şəkildə öyrənilməmişdir. Tarixi ədəbiyyatda tam elmi izahını tapmamış haqqında bəhs etdiyimiz məsələnin elmi cəhətdən işıqlandırılması Orta əsrlər dövrünün sosial-siyasi və ideoloji həyatının bir sıra məsələlərinin, xüsusilə qadınların Orta əsr feodal cəmiyyətinin həyatında rolunun və iştirakının öyrənilməsi üçün böyük əhəmiyyətə malik dəyərli mənbələrə çevrilə bilər.

ƏDƏBİYYAT

1. Qurani-Kərimin Azərbaycan dilinə tərcüməsi. Ərəb dilindən tərcümə edənlər Z.Bünyadov, V.Məmmədəliyev. Bakı: "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2015, 632 s.
2. Əbu Əli Həsən ibn Xacə Nizamülmülk. Siyasətnamə. Bakı: "Elm", 1987, 208 s.
3. Səfərli H. Naxçıvan şəhərinin epiqrafik abidələri. Naxçıvan: "Əcəmi" NPB, 2019, 152 s.
4. Səfərli H. Əlincəçay mahalının epiqrafik abidələri. Naxçıvan: "Əcəmi" NPB, 2020, 200 s.
5. Səfərli H. Ordubad bölgəsinin epiqrafik abidələri. Naxçıvan: "Əcəmi" NPB, 2021, 336 s.
6. Səfərli H.Yuxarı Əylis: tarixi, abidələri. AMEA NB Xəbərləri. Naxçıvan, № 3, s. 11-17.
7. Мухтаров А.М. Намогильные кайраки с женскими именами (XIV-XVI вв.). В кн. Древность и средневековье народов Средней Азии. История и культура. М.: Наука, 1978, с. 69-76.
8. Мухтаров А.М. Эпиграфические памятники Кухистана. Кн. I. Душанбе: Дониш, 1978, с. 306.
9. Шихсаидов А.Р. Эпиграфические памятники Дагестана X-XVII вв. как исторический источник. М.: Наука 1984, 464 с.

ГАДЖИФАХРЕДДИН САФАРЛИ
Член-корреспондент НАНА, профессор
Нахчыванский Государственный Университет

О МУСУЛЬМАНСКИХ НАДПИСЯХ, СДЕЛАННЫХ В ПАМЯТЬ О ЖЕНЩИНАХ (по материалам Нахчыванской Автономной Республики)

В статье рассказывается о надписях, сделанных в память о женщинах, обнаруженных в ходе эпиграфических исследований, проводимых на территории Нахчыванской Автономной

Республики. Отмечается, что в средние века по исламским законам, особенно в соответствии с требованиями Священного Корана о «Хиджабе», считалось важным, чтобы женщины скрывали свое тело от намахрамов. Эти запреты также иногда проявлялись в написании женских имен на эпиграфических памятниках. Наши исследования показывают, что, несмотря на все запреты, на некоторых надгробиях и намогильных камнях, установленных на могилах женщин, умерших на территории Нахчыванской Автономной Республики, их имена также упоминались. При этом использовались различные средства. Упоминание имен женщин на надгробных памятниках было связано с принадлежностью этих женщин к аристократическим семьям и их положением в обществе.

Ключевые слова: Нахчыван, Ордубад, надгробный камень, женщина, покойница, надпись.

HAJIFAKHRADDIN SAFARLI
Corresponding Member of ANAS, Professor
Nakhchivan State University

ABOUT THE INSCRIPTIONS OF MUSLIM MADE IN MEMORY OF WOMEN (based on the materials of the Nakhchivan Autonomous Republic)

The article talks about inscriptions made in memory of women discovered during the epigraphic research conducted in the territory of the Nakhchivan Autonomous Republic. It is noted that during the Middle Ages, according to Islamic laws, especially according to the requirements of the Quranic verse about “Hijab”, it was considered important for women to hide their bodies from non-mahrams. These prohibitions were sometimes reflected in the writing of women's names on epigraphic monuments. Our research shows that, despite all prohibitions, the names of some of the women who died in the territory of the Nakhchivan Autonomous Republic were mentioned in the inscriptions engraved on the headstones and chest-type memorial monuments. At that time, various means were used. Mentioning the names of women on gravestones was related to the fact that those women belonged to noble families and their position in the life of the society.

Keywords: Nakhchivan, Ordubad, headstone, woman, deceased, epitaph.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 08 aprel 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 may 2025-ci il.